**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

**Haradan:** SBRS
**İcra üçün:** MİHİ, MRTİ, MHSİ, MİƏİ, MMXİ, MTSA
**Məlumat üçün:** MNKT, Aİ üzv ölkələrindəki Səfirliklərimiz, SVŞN, NAVŞ, NNAT,NDNC
**Sənədin №** SBRS/ 113 /17 **Tarix:** 20 /02/2017
**Sənəd necə göndərilməsi:** Elektron poçt

**Səhifələrin sayı:** 4 **Əlavə olunur:**
**Məhdudluğu qrifi:** Xidməti istifadə üçün
**Təcililiyi:** Çox təcili
**Vacibliyi:** Çox vacib

**Məsələyə dair:** *Ümum-Ermənistan Xeyriyyə Assosiasiyasının Belçika nümayəndəliyi tərəfindən cari ilin 16 fevral tarixində Brüsseldə keçirilmiş təxribatçı tədbirin Səfirlik tərəfindən görülmüş tədbirlər nəticəsində iflasa uğraması barədə*

Azərbaycan Respublikasının
xarici işlər naziri
cənab Elmar Məmmədyarova

Hörmətli cənab Nazir,

Səfirliyin SBRS-106-17 saylı, 16.02.2017-ci il tarixli məktubunda bildirildiyi kimi, işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma "ombudsman" təsisatının "rəhbəri" Ruben Melikyanın iştirakı ilə cari ilin 16 fevral tarixində "Brüssel Press-Klub"unda "Avropa İttifaqının (Aİ) tanınmamış subyektlərlə işinin gücləndirilməsi: Dağlıq Qarabağ nümunəsi" adlı dəyirmi masa keçirilmişdir.

Tədbirdə çıxış edən *AGBU Europe* (Ümum-Ermənistan Xeyriyyə Assosiasiyası) təşkilatının Brüssel ofisinin direktoru **Nikolas Tavityan** Dağlıq Qarabağın Şərq Tərəfdaşlığı ərazisindəki digər münaqişə əraziləri kimi beynəlxalq QHT-lərin fəaliyyətindən faydalanmasının və Aİ ilə təmaslarının yaradılmasının zəruri olduğunu vurğulamışdır. Daha sonra çıxış edən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "ombudsmanı" **Ruben Melikyan** çıxış edərək Dağlıq Qarabağda insan hüquqlarının daha yüksək səviyyədə qorunmasının hədəfləndiyini və Aİ-nin bu prosesə cəlb olunmasının vacibliyini qeyd etmişdir. Bu istiqamətdə QHT səviyyəsində və digər fəaliyyətlər şəklində təşəbbüslərə açıq olduqlarını bildirən R.Melikyan aprel döyüşləri zamanı Azərbaycan tərəfindən ermənilərə qarşı vəhşilik törətməsinə dair "faktları" özündə ehtiva edən hesabatı barədə danışmışdır.

**Qeyd olunmalıdır ki, Səfirlik tərəfindən atılmış addımlar nəticəsində ermənilərin bu təxribatı iflasa uğramışdır.**

Tədbirin sual-cavab hissəsində verilmiş sualların əksəriyyəti R.Melikyanı çətin vəziyyətə salmışdır. Belə ki, "Brüssel Press-Klub"unun kommunikasiya üzrə rəhbəri **Mari Laura Françiosi** məruzəçidən Dağlıq Qarabağda yaşamış Azərbaycanlılar barədə nə deyə biləcəyini sorğu etmiş, onların harada olduğunu soruşmuşdur. R.Melikyan Azərbaycana qarşı ittihamlarla kifayətlənmiş, suala konkret cavab verməkdən boyun qaçırmışdır. Press-Klubun əməkdaşı isə R.Melikyana Ermənistan vətəndaşı olduğunu, əvvəl Dağlıq Qarabağda yaşamadığı halda, hansı səbəbdən özünü Dağlıq Qarabağın "ombudsman"ı kimi təqdim etdiyini sual etmişdir. Erməni "ombudsman" Dağlıq Qarabağın əhalisinin əksəriyyətinin erməni olduğunu, özünün İrəvanda doğulduğunu və Dağlıq Qarabağ "parlamentariləri" tərəfindən "ombudsman" kimi fəaliyyət göstərmək üçün dəvət olunduğunu bildirmişdir. Sonda, M.L.Françiosi R.Melikyana Avropa Şurası (AŞ) barəsində danışmadığını bildirmiş, AŞ-nin Dağlıq Qarabağ üzrə mövqeyi ilə maraqlanmışdır. Erməni natiq isə "ombudsman" olduğunu, siyasi suallara cavab verə bilməyəcəyini, "Çıraqov Ermənistana qarşı" məhkəmə işini qeyd etmiş, ancaq bu işin Ermənistana aid olduğunu, Dağlıq Qarabağa aidiyyatının olmadığını söyləmişdir.

Daha sonra, **Belarusiyadan olan jurnalist** Dağlıq Qarabağa Azərbaycanın "qara siyahısına" düşmədən səfər etmənin yolunu sorğu etmiş, R.Melikyan isə cavabında Azərbaycanın ombudsmanı olmadığını bildirmiş, jurnalistin "artsax"a gedərək hansısa reportaj hazırlamaq hüququnun olduğunu söyləmiş, bir daha siyasətçi olmadığını, siyasətdən yaxşı anlamadığını vurğulamışdır. Bunun ardınca həmin jurnalist məruzəçini konkret olaraq Dağlıq Qarabağa səfərin hər hansı yolunun olmadığını açıq şəkildə etiraf etməyə çağırmışdır.

Bunun ardınca **Belçika gənclər təşkilatının üzvü** Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı sual ünvanlamış, bu günə qədər hər hansı obyektiv qərar qəbul edilmədiyini, Dağlıq Qarabağa getməyin cinayət olduğu təqdirdə bunun hansı səbəbdən yalnız azərbaycanlılara şamil olduğunu sorğu etmişdir. R.Melikyan isə hadisənin 2014-cü ildə baş verdiyini, özünün isə 2016-cı ildən "ombudsman" seçildiyini, onların hüquqlarının qorunması üçün səy göstərəcəyini bildirməklə kifayətlənmişdir. Növbəti olaraq, auditoriyadan R.Melikyana Azərbaycanlarının Dağlıq Qarabağa səfər etməsi və həbs olunmamasına dair hər hansı faktın olub-olmaması ilə bağlı sual ünvanlanmışdır. Qarşı tərəf isə cavabında təmas xəttinin keçilməsinin həddindən artıq təhlükəli

olduğunu, Dağlıq Qarabağa səfər etmək üçün yeganə leqal yolun Ermənistandan olduğunu və Dağlıq Qarabağın təcrid olunduğunu bildirmişdir.

Daha sonra, **özünü Jozef kimi təqdim edən bir tədqiqatçı** söz istəyərək tədbirlə bağlı öz şərhlərini vermişdir. O, R.Melikyanın birtərəfli olduğunu, belə ki, yalnız erməni etnik qrupunun insan hüquqlarından danışdığını bildirmişdir. Digər məsələ kimi R.Melikyanın Qarabağda efektiv idarəetmə və yığcam yaşayan əhalinin mövcud olması fikirlərinə cavab olaraq, **Dağlıq Qarabağda iki icmanın olduğunu bildirmişdir. Bunlar Azərbaycanlı və erməni icmalarıdır ki, buna görə də Dağlıq Qarabağın statusu müəyyənləşməyəcəyi təqdirdə regionda effektiv idarəetmədən danışmağın gülünc olduğunu qeyd etmişdir.** O, R.Melikyanın çıxışının əsas etibarilə Ermənistanın xarici siyasətinin təbliğatı istiqamətində qurulduğunu və buna təəssüf etdiyini bildirmiş, insan hüquqları ilə bağlı fikirlərinin Dağlıq Qarabağın hər iki icması üçün təmin edilməli olduğunu bir daha vurğulamışdır.

Şərhinin sonunda, o, R.Melikyana ona verilən suallara cavab verməzdən əvvəl, onun bir neçə dəfə siyasətçi olmadığını bildirdiyini, insan haqları ilə bağlı iş gördüyünə dair ifadələr səsləndirdiyini xatırlatmış, lakin bu halda çıxışı zamanı qərəzli siyasi fikirlər səsləndirdiyini, burada məruzəçi olaraq nə siyasətçi, nə də "insan hüquqları müdafiəçisi" kimi suallara dolğun və əsaslı cavablar vermədiyini, qoyulmuş sualların məğzindən kənara çıxdığını vurğulamışdır.

**Bu şərhləri Ümum-Ermənistan Xeyriyyə Assosiasiyasının Brüssel ofisinin direktoru N.Tavityan əsəbi və yüksək səs tonu ilə kəsmiş, şərh üçün lazım olandan çox danışdığını bildirərək tədbirin sona çatdığını elan etmişdir.** Sonda N.Tavityan bir sıra Avropa ictimai institutları ilə danışıqlar apardığını, Aİ tərəfindən humanitar xarakterli fəaliyyətlərdə aktivləşməyə nail olmağın problemin həlli istiqamətində yardımçı olacağına ümid etdiyini bildirmiş və *LINKS* təşkilatının icraçı direktoru **D.Sammuta** söz vermək üçün tələsmişdir.

Lakin D.Sammut tərəfindən səsləndirilmiş fikirlər onun istəklərini doğrultmamışdır. Belə ki, D.Sammutdan "Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınmalı olduğu" ifadəsini eşitmək istəyən N.Tavityan dəfələrlə *LINKS* təşkilatının direktoruna bu konteksdə təsir göstərməyə (qeyd olunan ifadəni işlədərək qarşı tərəfdən təsdiqini gözləməsi) çalışması diqqətdən qaçmamışdır.

D.Sammut öz çıxışında Aİ tərəfindən "Dağlıq Qarabağ"la işləmək üçün yollar axtarılmalı olduğunu, lakin bunun sülh prosesində rol oynamaqla və rəsmi Bakının razılığının tələb etməklə mümkün ola biləcəyini bildirmişdir. O, Azərbaycan tərəfində Dağlıq Qarabağa qanunsuz səfər edənlərin siyahısının olduğunu, regionun Azərbaycanın tərkib hissəsi olması ilə bağlı beynəlxalq səviyyədə tanındığını, lakin 25 ildir ki, həmin ərazinin rəsmi Bakı tərəfindən nəzarət edilmədiyini vurğulamışdır. Onun sözlərinə görə, həmin "qara siyahı"da Qarabağı hansı səbəblə ziyarət etməsindən asılı olmayaraq həmin şəxslərin Azərbaycana girişi qadağan edilmişdir. Belə ki, bu yaxınlarda Azərbaycan tərəfindən bu məsələ ilə bağlı yeni addım atıldığını, Belarusdan A.Lapşinin ekstradisiyasının istənildiyini vurğulamışdır. O, A.Lapşinin bir neçə vətəndaşlığı (Rusiya, İsrail, Ukrayna) olması səbəbindən onun işinin diplomatik və hüquqi sahələrdə dönüş nöqtəsi olacağını diqqətə çatdırmışdır.

Qeyd etmək lazımdır ki, N.Tavityanın bir neçə dəfə öz "əməkdaşlar"ına əsəbi halda və səs tonunu qaldıraraq müraciət etməsi müşahidə olunmuşdur.

Tədbirin bu cür nəticələnəcəyini, R.Melikyanın Azərbaycanın haqlı mövqeyini göstərən şəxslər tərəfindən "sual yağışı"na tutulacağını gözləməyən N.Tavityan mütəmadi olaraq sual verən şəxslərin sözlərini kəsməyə çalışmış, özünü aqressiv və emosional şəkildə aparmışdır. Şübhəsiz ki, **bu sualların qeyri-Azərbaycanlılar tərəfindən ünvanlanması özlüyündə erməni tərəfinin işğalçı rejimin təbliğinə yönələn tədbirinin uğursuzluqla nəticələnməsində məxsusi rol oynamışdır.**

Sözügedən tədbirdə 7-si erməni olmaqla ümumilikdə 18 nəfərin iştirak etdiyi bu tədbir Azərbaycan tərəfinin müdaxiləsi nəticəsində hədəflənən məqsədlərə çatmaq əvəzinə iflasa uğradılaraq erməni tərəfinin aşkar narazılığına səbəb olmuşdur.

**Beləliklə, sözügedən tədbirin "Ermənilərin Brüsseldəki təxribatı iflasa uğradı" (Səfirliyin fəaliyyətinin qeyd edilməməsi şərti ilə) başlığı altında Azərbaycan mətbuatında geniş işıqlandırılmasını məqsədəmüvafiq hesab edirik. Fikrimizcə, cari ilin 16 fevral tarixində Brüssel "Press-Klub"unda və 6 fevral tarixində Avropa Parlamentində qatı ermənipərəst AP üzvü Y.Ştetinanın təşkilatçılığı və özlərini "milli müxalifət" adlandırdığı şəxslərin iştirakı ilə keçirilmiş hər iki təxribatın erməni tərəfinin məqsədyönlü planın tərkib hissəsi olması bir daha vurğulanmalıdır. Belə ki, Ermənistan prezidenti S.Sarkisyanın Brüsselə fevral ayının sonunda baş tutacaq səfəri ərəfəsində "Azərbaycan insan haqları vəziyyətinin "pis" (6 fevral tarixli tədbir), işğalçı rejimdə isə "yaxşı" (16 fevral tarixli tədbir) vəziyyətdə olması" təəssüratının yaradılması cəhdləri "demokratik" Dağlıq Qarabağın "qeyri-demokratik" Azərbaycana qaytarılmasının mümkün olmamasına dair ictimai rəyin formalaşmasına yönəlmişdir. Bununla bağlı, Azərbaycan mətbuatında xüsusi vurğulanmalıdır ki, özlərini Azərbaycanlı elan etmiş şəxslərin bu planın həyata keçirilməsində iştirakı işğalçı dövlətin maraqlarına xidmət edir.**

**Bununla yanaşı, Səfirliyin SBRS-106-17 saylı, 16.02.2017-ci il tarixli məktubunda qeyd olunduğu kimi, "Brüssel Press-Klub"unda "Ermənistan-Azərbaycan Sülh Platforması" təşəbbüsünün təbliğinə həsr olunmuş və Dağlıq Qarabağın Azərbaycanlı icmasının üzvlərinin iştirakı ilə dəyirmi masanın təşkilini təklif edirik.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyası və Milli Məclisinin məsələ ilə bağlı məlumatlandırılmasını və təkliflərimizin nəzərdən keçirilməsini xahiş edirik.

**Səfir: Fuad İsgəndərov**____________

**İcraçı:** Səbuhi Qasımov (3156)